# Tarix təlimində sənədlərdən istifadənin əhəmiyyəti və məqsədləri

**Qərənfil Məmmədzadə**
*Azərbayacan Dövlət Pedaqoji Universteti*
**E-mail:** qerenfil.ekberova@mail.ru

**Rəyçilər:** ped.ü.e.d., prof. M.M. Əmirov,
ped.ü.e.d. D. Musayev

**Açar sözlər:** tarix, sənəd, metodika, mənbə, təlim, şagird
**Ключевые слова:** история, документ, методология, источник, обучение, учащийся
**Key words:** history, document, methodology, source, training, student

Tarix təlimində bilik mənbələri müxtəlifdir. Bunlara nümunə olaraq ayrı-ayrı şəxslərin söhbətlərini, kitabları, şəkil və kinofilmləri, məişət əşyalarını və s göstərmək olar.

Qeyd etmək lazımdır ki, "tarixi mənbələrlə" "şagirdlərin "tarixi bilik mənbələri" anlayışları arasında mühüm fərq vardır. Tarixi mənbə dedikdə sənədli ilkin mənbələr nəzərdə tutulur, bunların əsasında tədqiqatçı tarixi faktları müəyyən edir və yoxlayır. Sənədli ilkin mənbədən bu mənada təlim metodikasında istifadə olunur. Onlar ilkin mənbə adlandırılır: "Tarixi bilik mənbələri" anlayışı pedaqoji anlayışdır. O, daha geniş məna daşıyaraq həm ilkin mənbələri, həm də elmlə sistemləşdirilən və özündə bilik cəmləşdirən mənbələri əhatə edir. Məktəblilər üçün tarixi bilik mənbələri rolunda müəllimin söhbəti və dərs vəsaitləri ilə yanaşı digər informasiya mənbələri — muzeylər, sənədlər, qəzetləri və s. çıxış edir.

Bir çox metodistlər mənbələri biliklərin xarakterinə görə qruplaşdırırlar ki, bu da həmin biliklərin şüurlu mənimsənilməsinə yönəlib. Belə qruplaşma təlimdə müxtəlifi mənbələrin rolunu və yerini müəyyənləşdirməyi kömək etməyə xidmət edir. Elmi cəhətdən işlənib hazırlanmış materiallarla iş sənədlə işdən fərqlənir. Bu mənada tarixi bilik mənbələri ilə iş aşağıdakı əsas qruplara bölünür:

1. Sənədli tarixi mənbələr
2. Tarixi bilikləri elmi cəhətdən işlənib hazırlanmış formada əks etdirən mənəbələr
3. Tarixi keçmişi incəsənət vasitəsilə əks etdirən mənbələr.

Tarixi bilik mənbələrinin bəzi qrupları formasına görə bölünür, hansı ki, bunlarda tarixi biliklər söz, şərti işarə, iştirakçı obrazı ilə ifadə olunur.

Tarixi bilik mənbələri dərs vəsaitləri formasında tərtib olunur, bəzi vəsaitlərdə xarakterinə görə müxtəlif növlü mətni və illüstrativ mənbələr daxil edilir.

Mənbələrlə iş üçün onların texniki cəhətdən tərtibatı - yəni ekran başına, kolleksiyaların ekspozisiyası, müstəqil vəsaitlərin hazırlanması xüsusi əhəmiyyət kəsb edir.

Tarixi bilik mənbələrinin xülasəsini cədvəl şəklində də vermək olar.

Sənədlərdən biliklərin ilkin mənbəyi kimi istifadə edilməsi, bəzi metodistlərin müşahidəsinə görə, tarixi faktların və ayrı-ayrı obrazların şagirdlər tərəfindən yadda saxlama müddətinin artmasına kömək edir: "Belə sənədin obrazlı məzmunu şagirdlərin təkcə diqqət və yaddaşını deyil, həm də onların obrazlı təfəkkürünü və yaradıcı təxəyyülünü fəallaşdırır, təhlil edilən sənədin məzmunu ilə əlaqədar olan və şagirdlər tərəfindən əvvəllər alınan təsəvvür və biliklərin bütün kompleksini fəal vəziyyətə gətirir.

Sənədlə iş məktəblilərin təfəkkürünü fəallaşdırır, onu tarixi hadisələri təhlil etməyə öyrədir. Şagirdlərdə təlim prosesi və praktiki həyat üçün lazım olan bir sıra bacarıq və vərdişlər formalaşır: digərlərini dinləmək və müxtəlif xarakterli sənədləri oxumaq, onları müqayisə etmək, materialı sistemləşdirmək, qeydlər aparmaq, sənədlər əsasında nəticə çıxarmaq və s. Digər sözlə desək; sənədlə iş tarixi tədqiqatın metodu ilə şagirdləri əməli şəkildə tanış etmək yollarından biridir. Bu cəhəti nəzərə alaraq metodist V. Vemadski hələ keçən əsrin 30-cu illərində qeyd edirdi ki, tarix təliminə sənədin daxil edilməsi, şagirdlərin sənədlə tanış olması “bir tədris fənni kimi, tarixin bir elm kimi tarixlə yaxınlaşmasına kömək çdir. Orta məktəblərin yuxarı siniflərində tarix fənninin tədris edilməsi bu və ya digər elmin metodu ilə də bir qədər tanış olmağı qarşısına məqsəd qoymalıdır. Sənədin cəlb edilməsi şagirdlərdə mətni tənqidi təhlil etmək üsullarının inkişafına gətirib çıxarır.

Şagirdlərə təlim prosesinin fəal iştirakçısı kimi, dərsliyə isə yalnız biliklərin möhkəmləndirilməsi vasitəsi kimi deyil, həm də müəllimin köməyi ilə şagirdin müstəqil surətdə bilik aldığı vəsait kimi baxılırdı. Dərsliklərə tarixi biliklərə dair müxtəlif mənbələri: sənədlər, müxtəlif növlərdən olan illüstrasiyalar daxil edildi. Məktəblilərin müstəqil idrak fəaliyyətini stimullaşdıran suallar ya tapşırıqlar sistemi tərtib olundu. Belə vəzifələrin, məsələlərin həlli üçün tarix dərsliklərinə dair müstəqil iş üçün dəftərlər, kontur xəritələr hazırlanırdı.

Məktəb üçün tarixdən dərsliklərin nəşr edilməsi ilə sənəd materialının rolu əhəmiyyətli dərəcədə dəyişdi. Tarixi sənəd dərsliyi daxil edildiyinə və onun tərkib hissəsi olduğuna görə, tarix dərslərində həmin sənədlərlə işləmək məcburi oldu.

**Məqalənin aktuallığı.** Müxtəlif elm sahələrinə aid bilik kütləsinin həcminin sürətli artdığı müasir dövrdə təlimin ənənəvi üsulları bilikləri mənimsəməyi, öyrənməyə imkan vermir. Bu isə yeni, daha səmərəli təlim metodlarından istifadə etməyi tələb edir. Təlim prosesində elə metodlardan istifadə etmək lazım gəlir ki, təhsil alanların bilikləri müstəqil surətdə əldə etməyi bacarsınlar.

**Məqalənin elmi yeniliyi.** Mövzu ilə bağlı aparılan tədqiqat zamanı məlum olur ki, sənəd üzərində iş zamanı interaktiv metodlardan istifadə olunması təlimə cəlb olunanların təfəkkürünün müntəzəm inkişaf etdirilməsinə, bilik və bacarıqlarının, müstəqil əldə olunmasına, dərsin maraqlı olmasına şərait yaradır, dərsə maraq artır, əldə edilmiş biliklərin daha uzun müddət yadda saxlanılması təmin edilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Mövzu üzərində iş zamanı əldə edilmiş nəticələr ümumtəhsil müəssisələrində tarix dərslərinin səmərəliliyinin yüksəldilməsində, təhsil alanların idrak fəallığının yüksəldilməsi, tənqidi və yaradıcı təfəkkürün formalaşdırılması, problemlərin həllində qərarların qəbul edilməsi vərdişlərinin formalaşdırılmasında istifadə oluna bilər.

## Ədəbiyyat

1. Bayramov Ə.S. Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.
2. Paşayev T.S. Tarixin tədrisi. tarixilik və müasirlik. Bakı: Nurlan, 2006.
3. Xəlilov S.S. Orta təhsilin məqsədi və məzmunu haqqında. Bakı: Azərbaycan Universiteti, 2004
4. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Nurlan, 2004

5. Əmirov M. Orta məktəbdə tarixin tədrisinin aktual problemləri. Bakı: ADPU-nun nəşri, 2009

6. Əmirov M. Tam orta məktəbdə tarixin fəal-interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı: Yeni nəşr, 2011.

**Г. Мамедзаде**

## Важность и цель использования документов в обучении истории

### Резюме

Используя исторические источники, учитель может показать студентам, как существует историческое знание, и помочь учащимся понять сущность исторических доказательств. В результате студенты обычно обладают универсальными навыками для проведения исторических анализов.

**G. Mammadzade**

## The importance and purpose of using documents in history teaching

### Summary

By utilizing historical sources, a teacher can show students how historical knowledge exists, and help students to understand the essence of historical evidence. As a result, students generally have universal skills to carry out historical analyzes.

**Redaksiyaya daxil olub:** 24.05.2018